# Gölə baxan kişi

## Draqo Yançar



**(Hekayə)**

**(əvvəli ötən sayımızda)**

***Xose Mlakar müxtəlif dövlət və özəl televiziya kanallarında görünməyə davam etdi, amma sözləri və təsirli imici əvvəlki kimi maraq doğurmurdu, ya da keçmişdəki kimi ciddi reaksiya yaratmırdı. Hətta bəzi adamlar ona əsəbləşməyə başlamışdılar. Deyilənə görə, onun səhvi ölçü hissini itirməsiydi. Hər gün ekran görünür və danışırdı, artıq fasilə vermək vaxtı gəlmişdi. İnsanların populyar adamlardan əvvəl-axır yorulduğu və onların da fasilə verməli olduğu məlum həqiqət idi. Amma Mlakar fasilə vermirdi. Kameranın obyektivi onu zəhərləmişdi. Nə vaxt ondan nəsə soruşulmasa, ya da onu dəyirmi masaya dəvət etməsələr, telekanala zəng vurub şikayər edirdi. Vətən təhlükədəykən, insan haqları əzilərkən məni dəvət edirdiniz deyirdi, insan işlər düzələndən sonra ən sadə insan haqqı olan ifadə azadlığımı əlimdən alırsız. Və bunlar indi baş verirdi, səhnəyə atıldığı, əslində, bircə cümlə dediyi o dövrə baxanda, indi daha çox sözü olduğu zamanda. Əsəblərini korlayan sonuncu şey müdirin zəng vurub işə nə vaxt gələcəyini soruşmasıydı. Xüsusilə, mədəni şəkildə televiziyaya çıxmaq üçün ona maaş verməyə davam etməyi düşünmədiyini deyəndə, Mlakar, hiddətlə telefonu müdirin üzünə qapatmış və vacib işinə geri dönmüşdü. Otağı kağızla dolub-daşmışdı, divarlara xatırlatma qeydləri yapışdırmış, üstlərinə də müzakirə olunmalı mövzularla bağlı sitatlar, işarələr və suallar yazmışdı. Uzun müddət əvvəl mətbəx masasında yazmaqdan vaz keçmiş, tavan arasında özünə bir məkan düzəltmiş və televiziyada öz görüntüsünü yaxşılaşdırmaq üçün balaca bir kamera da almışdı. Amma bu kamera onu bəs etmirdi. Milyonlara xitab edən həqiqi bir kamera kimi cazibəli deyildi, milyon dəfə daha böyük bir gücün fokuslandığı o obyektiv kimi onu içinə çəkmirdi. Ailəsiylə çox az görüşürdü, gün boyu təklif edəcəyi mövzuları düşünürdü, axşamları isə ailəsi onun tavan arasından gələn hayqırışlarına və alovlu sözlərinə qulaq asırdılar. Bir səhər qapının altından atılan gündəlik bir qəzetdəki bir yazı onu dəliyə çevirdi. 'Mlakar nə danışır?" adlı yazı kinayəli tərzdə yazılmışdı.***

"Deməyə sözü olmayanlar adətən insan haqlarından bəhs edirlər" – deyə yazılmışdı. "Süni gübrədən danışsalar, daha çox yaxşı olar." Mlakar hiddətlə qəzeti parçaladı və kağız parçalarını əl-üzyuyana atıb suyu açdı.

Amma içində son dəfə özünü göstərmək istəyi vardı.

Şirkət müdirinin otağında onun ilk müsahibəni edən qadın müxbirə zəng vurdu və onunla bir dəfə daha müsahibə etməsini xahiş etdi. Müxbir ağzını açmamış "İnsan haqlarından danışmayacam!" – dedi. Sonra uzun-uzun süni gübrə istifadəsindənv ə sularımızın necə çirklənməyindən bəhs etdi. Bir az mücərrəd, amma qərarlı danışırdı, nə də olsa günün pik saatında çıxmışdı efirə. Bəzi tamaşaçılar bu uzun monoloqu tərbiyəsiz jurnalistə dahiyanə cavab kimi şərh etdilər, xüsusilə çıxışının axırında çirklənmiş suların da bir insan haqları problemi olması və hüquq müdafiəçilərinin heç vaxt yorulmayacağını vurğulaması. Bu, televiziyadakı axırıncı çıxışı oldu.

Deyilənə görə bu proqramdan sonra başqan onun taleyini müəyyənləşdirən sözləri demişdi: "Artıq mikrofonu Mlakardan uzaqlaşdırın."

Başqan məsləhətçiləriylə keçirdiyi səhər toplantısında Mlakarın hər çıxışından sonra ölkədə vəziyyətin pisləşdiyini açıqlayaraq kefsizliyini haqlı göstərmək istəmişdi.

Mlakarın şöhrəti bunun dəlili idi. Mlakar nə vaxt ağzını açsa, başqanın populyarlığı 5 faiz düşürdü. Məsləhətçilərindən biri özündə cürət tapıb dedi ki, Mlakar adətən sizdən danışmır, axırıncı çıxışı süni gübrədən istifadənin fəsadları, göl sularının çirklənməsi haqqındadır.

"Bu nə deməkdir?" – deyə soruşdu başqan, "Artıq bunu yekunlaşdırmaq lazımdır!"

Digər məsləhətçi əlindəki qələmi oynadaraq söylədi ki, hər müxbirin Mlakara bir mikrofon uzatmasının qarşısını almaq çətin olacaq, bunun əvəzinə maaşını ödəyən şirkətdən onu işə geri çağırmasını istəyək. Bu, Mlakarın sonu oldu.



"Hmm!" – deyə düşündü başqanın xanım sekretarı, başqan xoşbəxt olanda xoşbəxt, əsəbi olanda əsəbi olurdu. İndi başqan da, o da əsəbiydi.

"Danışmağa davam edəcək," – dedi sekretar xanım, "Bu təklif çıxış yolu deyil."

Başqan təkrarladı: "Onu mikrofondan uzaqlaşdırın. Kameraya heç vaxt yaxın düşməsin."

***Bu, çətin məsələydi, Xose Mlakara kamera qadağası gətirmək dövlət siyasəti halına gəlsə də, açığı elə də effektiv deyildi. Bütün böyük və balaca tele-kanalların rəhbərlərinə Mlakarı dəvət etməyin demək bir təklif idi, amma kimsə onu dayandırmalıydı və o tarixi etiraz mitinqində ağzından çıxanların mənası təkrar düşünülməliydi. O sözlər Mlakarın heç vaxt geri durmayacağı demək idi. Bir şənbə günü bazarda çəkilən bir verilişdə ortaya çıxdı.***

İstehlakçılara qida vərdişləriylə bağlı suallar verən təcrübəsiz bir müxbirin kamerasının önünə böyük bir bacarıqla keçib bu ölkədə insanların avtomobil dumanıyla çirklənən salatları yeməyə məcbur qalmasından gileyləndi və bunun təməl insan haqlarına təhdid olduğunu dedi. Müxbir işdən qovulana qədər Mlakar başqa yerdə təzədən ortaya çıxdı, bu dəfə bir futbol oyununda bir müxbirinin yanında. Heç nədən şübhələnməyən müxbir ilk hissə boyu jurnalistlər üçün nəzərdə tutulan köşkün düz yanında dayanıb başıyla hər şeyi təsdiq edən (tanış gəlirdi) bu tamaşaçını içəri dəvət etdi və fikir söyləməsini istədi. Və Xose Mlakar nacizanə şəkildə yeganə hücum planının yaxşı nəticə vermədiyini, çünki bu halda mərkəzə oyunçu çıxara bilmədiklərini dedi. Və bu oyunun biz tamaşaçıları qol görməkdən məhrum etdiyini, halbuki qolun futbolun ən gözəl tərəfi olmasını, deməli insanların bazar günündən zövq almaq haqlarına təsir etdiyini söylədi. Müxbir söhbətin futbol oyunundan uzaqlaşmaqda olduğunu sezdi, amma Mlakarın təsirli son nöqtəni qoymasının qarşısını almadı. "Və bu," – dedi Mlakar, kameranın möcüzəvi obyektivinə baxaraq, "dəhşətli bir insan haqları pozuntusudur, beynəlxalq müqavilələrdə öz əksini tapıb, Cenevrə müqaviləsində və digərlərində!" İnsan haqlarıyla çox da maraqlanmayan şərhçi qəfildən Cenevrə Müqaviləsinin müharibə əsirləri haqqında olduğunu və ölkədə müharibə getmədini xatırladı. Sonra titrəyən barmaqlarıyla mikrofonu söndürdü, fəqət televiziya tamaşaçılarının Mlakarın danışmağa davam etdiyini gördüklərini bilirdi.

Mlakarı tanıyan xeyli televiziya kanalı onun simasının artıq televizorda görünməməli olduğunu bilirdi. Mlakar ortaya çıxan kimi, obyektivlərini başqa yönə çevirirdilər.

Bəzilərinin ona yazığı gəlir, bəzən şəhərin heç kim keçməyən yerində kameralarını çiyinlərinə alıb onun danışmasına icazə verirdilər, amma əslində çəkiliş aparmırdılar. Daha az simpatiya bəsləyənlər isə çəkiliş fasiləsində onunla məzələnirdilər. Məsələn, bir gün şəhərin körpülərindən birinin üstündə məşhur bir yazıçı çay kimi axan və dəyişən zaman haqqında danışacaqdı, fonda yaşıl çay görünəcəkdi, çəkiliş qrupu gözləməkdən yoruldu.

Yavaş-yavaş yaxınlaşan və yazıçı görünən kimi qabağına atılmağa hazırlaşan Mlakarı tanıyan bir operator, "Hey Mlakar!" – deyə səsləndi. "Hey, Mlakar, niyə mahnı oxumursan?"

"Çünki not bilmir" – dedi işıqçı.

"Not bilmirəm?" – deyə soruşdu Mlakar.

"Bilirsənsə, buyur."

"Yəni do, re, mi, fa, sol?"

"Danışma, mahnı oxu."

"Çəkəcəksiniz?" – deyə soruşdu Mlakar.

Operator kamerasını Mlakara çevirdi. Və Mlakar oxumağa başladı: "Do, re, mi, fa, si, do..."

***Ətrafda toplaşanlar qəhqəhəylə gülməyə başladı, xüsusilə notları tərsinə oxumağa başlayanda.***

***Mlakar tamam unudulmamışdan qabaq son dəfə yenə səhnəyə çıxmağa cəhd etdi, Müstəqillik Günündə. Amma mühafizəçilər onu saxta biletlə üçüncü sırada oturduğu yerdə tutdular. Yoxa çıxmasından qabaq Mlakarı axırıncı dəfə görən iki nəfər 'Mercator" supermarketinin idarəçisi və kassiriydi. Heç biri onu tanımadı, amma xatırlaya bilərdilər. Axı çox da uzaq olmayan keçmişdə hər gecə televizora çıxırdı. Bir az saqqalı uzanmışdı, amma indiki dəbə uyğun formada yox. 'Bir müddətdir təraf olmamış adama oxşayırdı, köynəyini də dəyişdirməmişdi,"– dedi, xeyli insanla ünsiyyətdə olduğu üçün belə işlərdən başı çıxdığı fərz edilən kassir. Və müşahidə kamerasına da sifəti uzanmış şəkildə düşmüşdü. Yenə də kassir onu tanımalıydı. Ah, insan yaddaşı bu qədər zəif olmasaydı. Bu gün hamı səni tanıyır və heyran olur, sabah isə heç kim eyninə almır. Amma hər ikisi – idarəçi də, kassir də ona diqqətlə baxmışdılar, çünki çox qəribə davranırdı. Süd məhsullarının olduğu soyuducunun qabağında dayanıb yuxarıdakı müşahidə kamerasına tərəf danışırdı.***

Kassir onun Mlakar olduğunu bilsəydi, nə dediyini başa düşərdi, müdiri də "Səsi gəlmir, gedib görüm nə danışır" deməzdi.

Xose Mlakar çox güman ki, insan haqlarından danışırdı, amma bu təsbit edilmədi, çünki kamera səsi almırdı, icraçı soyuducunun olduğu yerə çatanda heç nə eşitmədi, Mlakar artıq orda deyildi, yoxa çıxmışdı. Ailəsi itkin elanı verdi, hamı əvvəl-axır ortaya çıxacağından əmin idi. Bir müddət ölkəni gəzdi, arada zənglər etdi. Deyəsən həyatının geri qalanını onu özünə çəkən, rahat buraxmayan o sehirli gözü axtarmaqla keçirəcəkdi.

Mlakar paytaxta gedən yolun kənarında, avtobus dayanacağının yaxınlığında, şehli payız yarpaqlarının arasında tapıldı. Beli üstə uzanmışdı, başının üstündəki budaqların əmələ gətirdiyi çələngə baxan gözləri açıq idi. Detektivlər asanlıqla açıqladılar ki, qatil Mlakarın bədənini yoldan meşəyə tərəf təxminən üç metr sürüyüb. Öldürülən adamın əynindəki paltarlar və üz-gözü yaş idi, ciblərinin torpaqla, yarpaqla dolu olması göstərirdi ki, onu sürüyüblər. Portmanatı cibindən yerə düşmüşdü və boş olduğu üçün oğurluq şübhəsi vardı. Amma bu ehtimalın özü şübhəliydi, çünki yaxınlıqdakı bir otelin katibi öldürülən adamın bir gecə əvvəl otelə gələrək uzun müddətdir borclu olduğu pulu ödədiyini dedi. Borcunun faizini də ödəmək istəmişdi, amma otel katibi onun çökmüş sifətini görüb faizi götürməmişdi. İstənilən halda faizi ödəyə bilməzdi, çünki katib borcunu ödəyəndən sonra cibində heç nə qalmadığını görmüşdü. Bəlkə çantasında pulu vardı. Amma cəsədin yaxınlığındakı çanta toxunulmamış və oxunması mümkün olmayan əlyazmalarla doluydu. Öldürücü zərbə başına dəyib qafatasını çartlatdığından tibbi ekspertiza cüssəli və güclü bir adam tərəfindən öldürüldüyünə rəy verdi. Cəsədin ətrafında polis kameralar və fotoaparatlar çəkiliş aparарkən, sanki hələ də canlıymış kimi, onlara baxan ölü gözlərin təsirindən özlərini xilas edə bilmədilər.

***Bu gözlər sanki cinayəti törədən cüssəli adamı ağacların arasında görə bilir, ya da elə bil, dərin bir gölün hamar və qaranlıq səthinə fokuslanıb ondan ayrıla bilmirdi.***

*[1] "Heç vaxt təslim olmayacağıq, heç vaxt vaz keçməyəcəyik, çünki bu bizim haqlarımızla bağlıdır!"*

*[2] "Küçələrdə və meydanlarda döyüşəcəyik!"*

**Tərcümə etdi: Qismət Rüstəmov**